**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

Bakı şəhəri № 228/4 29 fevral 2012-ci il

İFAC-ın Beynəlxalq audit standartlarının tərcüməsi, redaktəsi və nəşri barədə

Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "Beynəlxalq audit standartlarının son versiyasının tərcüməsi, redaktəsi və nəşri barədə" və "Beynəlxalq audit standartlarının son versiyasının şərhinin tərcüməsi, redaktəsi və nəşri barədə" 2.1.1-ci, 2.1.2-ci, 7.4-cü, 7.5-ci, 24-cü və 25-ci müvafiq bəndlərinin icrası ilə əlaqadar sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun məlumatını müzakirə edərək və bu məsələyə dair Şura üzvlərinin əlavə və təkliflərini nəzərə alaraq, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. İFAC-ın Beynəlxalq audit standartlarının tərcüməsi, redaktəsi və nəşri barədə sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun məlumatı nəzərə alınsın (əlavə olunur).
2. İFAC-la aparılmış danışıqlara və əldə olunmuş razılığa əsasən İFAC-ın 2010-cu ildə nəşr edilmiş Beynəlxalq audit standartlarının tərcüməsi İFAC-ın 2012-ci ildə nəşr olunacaq Beynəlxalq audit standartlarının tərcüməsi ilə əvaz olunması məqsədəmüvafiq hesab edilsin.
3. Sədrin müşaviri A.Kərimova tapşırılsın ki, Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının "Beynəlxalq audit standartlarının tərcüməsi, redaktəsi və nəşri barədə" və "Beynəlxalq audit standartlarının son versiyasının şərhinin tərcüməsi, redaktəsi və nəşri barədə" yuxarıda göstərilən bəndlərinin icra müddətində müvafiq dəyişikliklər etsin.

**ŞURANIN SƏDRİ V.NOVRUZOV**